**AZƏRBAYCAN XALQ PARLAMENTİNİN**

**Azərbaycanda işgəncə faktları və onların qarşısının alınması haqqında**

**QƏTNAMƏSİ**

**Azərbaycan Xalq Parlamenti,**

– Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyası tərəfindən qəbul edilən "İşgəncəyə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftara və ya cəzaya qarşı Konvensiya"nı (1984), eləcə də ona Fakültativ Protokolu (2002) rəhbər tutaraq;

– Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin (1948) 5-ci maddəsinə, Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Paktın (1966) 7-ci maddəsinə, Avropa İnsan Hüquqları Konvensiyasının (1950) 3-cü maddəsinə və Avropa Şurasının İşgəncənin Qarşısının Alınması üzrə Komitəsinin sənədlərinə istinad edərək;

– Azərbaycan Respublikasının Konstitusiyasının 46-cı maddəsini ("İnsanın şərəf və ləyaqət hüququ") və Cinayət Məcəlləsinin 113, 133 və 293-cü maddələrini əsas götürərək;

– Azərbaycan Respublikasının beynəlxalq öhdəliklərinə baxmayaraq, ölkə üzrə işgəncə hallarının sistemli xarakter daşımasını, cəzasızlıq mühitinin dərinləşməsini, "Tərtər hadisəsi" kimi dövlət səviyyəsində törədilmiş ağır cinayətlərin hələ də tam araşdırılmamasını nəzərə alaraq;

– Azərbaycan vətəndaşlarının hüquq-mühafizə orqanlarında, istintaq idarələrində, təcridxanalarda və cəzaçəkmə müəssisələrində işgəncəyə məruz qalması barədə çoxsaylı sübutlar, şahid ifadələri, məhkəmə materialları və beynəlxalq hesabatlarla tanış olaraq;

– İşgəncənin insan şəxsiyyətinə, cəmiyyətin mənəvi-psixoloji durumuna, dövlət institutlarına və demokratiyanın əsaslarına dağıdıcı təsirini nəzərə alaraq;

- Azərbaycan Xalq Parlamentinin 4 oktyabr və 11 oktyabr 2025 il sessiyasındakı məruzələr, dinləmələr və müzakirələr əsasında

**Bu Qətnaməni qəbul edir.**

## 1. Ümumi müddəalar və hüquqi qiymətləndirmə

İşgəncə – dövlət orqanı, onun nümayəndəsi və ya onların göstərişi, təhriki, razılığı və ya göz yumması ilə hər hansı şəxsdən məlumat almaq, etiraf etdirmək, qorxutmaq, cəzalandırmaq və ya hər hansı ayrı-seçkilik səbəbi ilə qəsdən fiziki və ya psixoloji əzab verməkdir.

İşgəncə qadağası universal və şərtsiz normadır. Heç bir fövqəladə vəziyyət, müharibə, daxili iğtişaş və ya dövlət təhlükəsizliyi arqumenti işgəncənin tətbiqini əsaslandıra bilməz.

Azərbaycan Respublikasının Konstitusiyası və beynəlxalq müqavilələr bu qadağanı təmin etsə də, praktik reallıq tam əksini göstərir: işgəncə faktları sistemli və cəzasız qalır.

Qanunvericilikdə işgəncənin tərifi qismən beynəlxalq standartlara uyğunlaşdırılsa da, psixoloji işgəncə, seksual zorakılıq, institusional səviyyədə laqeydlik və əməli cəzasızlıq hallarına qarşı mexanizmlər yetərli deyil.

Dövlətin üzərinə düşən öhdəlik yalnız işgəncəni qadağan etməklə bitmir. Azərbaycan dövləti həm də:

- işgəncə halları üzrə təcili, obyektiv, tam, hərtərəfli və müstəqil istintaq aparmaq,
- işgəncə törədənləri cəzalandırmaq,
- işgəncə qurbanlarına kompensasiya ödəmək və onlara  reabilitasiya xidmətləri göstərmək,
- ödənilən kompensasiyaları təqsirkar şəxslərdən reqres qaydasında tələb etmək,
- işgəncələrin təkrarlanmasının qarşısını alan preventiv mexanizmlər yaratmaq öhdəliyi daşıyır.

**2. İşgəncələrin formaları, miqyası və fəsadları**

Azərbaycan Xalq Parlamentinə təqdim edilən faktlar göstərir ki, Azərbaycanda işgəncə həm fiziki, həm də mənəvi-psixoloji xarakter daşıyır və çoxsaylı, sistemli, məqsədyönlü üsullarla həyata keçirilir.

**2.1. Azərbaycan Respublikasında tətbiq edilən çoxsaylı işgəncələrin bəzi növləri aşağıdakılardır:**

**2.1.1. Fiziki işgəncələr:**

- Dəfələrlə yumruq və təpiklə döyülmə;
- Dəyənək, rezin boru, metal armatur və ya taxta parçası ilə döymə;
- Elektrik cərəyanına qoşma – xüsusilə bədən, dırnaqaltı, ağız, cinsiyyət orqanı və arxa dəlik nahiyələrindən;
- Əl və ayaq dırnaqlarının zorla çıxarılması;
- Maqqaşla bədən ətlərinin qoparılması;
- 1,5–2 metr hündürlükdən yerə çırpılma;
- Bədənin müxtəlif hissələrinin kəskin alətlərlə deşilməsi (bıçaq, süngü, sim, “katenka” və s.);
- Drellə ayaq və bud sümüklərində deşik açılması;
- Əridilmiş plastik maddələrin bədənə (əl, sinə, kürək, ayaq və s.) tökülməsi;
- Qabarmış yaralara duz, istiot tökülərək ayaqla tapdalanması;
- Ayaqlardan asılmaqla başın su dolu qaba salınması, boğulma effekti yaradılması;
- Sidik içməyə məcbur edilmə;
- Günlərlə təbii ehtiyacların qarşılanmasına icazə verilməməsi, nəcis və üfunət içində saxlanma;

- Ağız, burun və ya üz nahiyəsinin isladılmış parça ilə bağlanaraq üzərinə su tökmə (boğulma hissi – “waterboarding”);
- Bədən üzvlərinin çəkiclə, metal alətlə sındırılması;
- Dişlərin alətlə sındırılması və çıxarılması (şahid ifadələrinə görə çoxsaylı dişlərin zorla çıxarıldığı təsdiqlənmişdir);
- Arxa dəliyə (anus) dəmir alətlər, taxta reykalar və ya ayaqla təzyiq göstərməklə daxili orqanların zədələnməsi və ölümə səbəb olma;
- İnsanları bir-birinə zorlamaq və ya bu hərəkətləri zorla müşahidə etdirmək;
- Əsgər və zabitlərin çılpaq halda kamera qarşısında zorlanması;
- İnsanların beton və asfalt üzərində süründürülməsi;
- İlanlı və tikanlı sahəyə atılaraq çaldırılması;
- Bacı və qardaşın, ana və oğulun lüt vəziyyətdə üz-üzə bağlanması;
- Xayalardan asılma və sürüklənmə;
- 5 litrlik qablarla ağza su tökülüb qarnına təpiklə vurulmaqla boğulma hissi yaratmaq;
- Bəzi hallarda bilinməyən maddələr və ya zəhərli iynələrin vurulması ilə zəhərlənmə və yaddaş itkisinə səbəb olunması.

Cəzaçəkmə müəssisələrinin və istintaq təcridxanalarının sanitar hissələrində işgəncə faktlarının mövcudluğu xüsusi narahatlıq doğurur. Qanuni tibbi yardımın yerinə həmin bölmələrdə məhbuslara qarşı fiziki zorakılıq və tibbi manipulyasiyalar adı altında işgəncələr həyata keçirilir. Xəstə məhbuslara lazımi dərmanların verilməməsi, müalicənin qəsdən gecikdirilməsi, ağrıkəsici və həyati vacib dərmanların kəsilməsi geniş yayılmış haldır. Bu, həm beynəlxalq humanitar hüququn, həm də həkim andının kobud şəkildə pozulması deməkdir.

**2.1.2. Psixoloji və cinsi işgəncələr:**

- Məhbus və ya təqsirləndirilən şəxsin ailə üzvlərinə təzyiq göstərmə, xüsusilə qadınların və azyaşlıların zorakılığa məruz qalması ilə hədələnmə;
- İnsanların bir-birinə və ya yaxın qohumlarına qarşı ifadə verməyə, onları təhqir etməyə və zorakılıq göstərməyə məcbur edilməsi;
- Cinsi təhqir, lüt vəziyyətdə saxlanma, cinsi zorakılıq və təcavüzlə hədələnmə;
- Qadın və ya kişi məhbusların təhqiredici vəziyyətdə saxlanması, bədənlərinin çəkilməsi və yayımlanmaqla alçaldılması;
- Günlərlə izolyasiyada saxlanma, ailə ilə əlaqədən, vəkillə görüşdən məhrum edilmə;
- Davamlı təhqir, ləyaqəti alçaldan söz və hərəkətlər, təhdid, yuxusuzluq və aclıqla məcburiyyət;
- Cəzalandırma məqsədilə yemək, su və tibbi yardımdan məhrumetmə;
- Məhbusların ailə üzvləri haqqında saxta məlumatlarla qorxudulması;
- Cinsi orqanlara və bədənə təcavüz edərək videoçəkilişlə “etiraf” almaq;
- Psixoloji sındırma məqsədilə başqalarının işgəncə səhnələrinə məcburi baxdırma;
- İnsanların ailə və övladları qarşısında təhqir və zorakılığa məruz qoyulması.

Bu işgəncə növləri beynəlxalq hüququn bütün fundamental normalarının pozulması olmaqla yanaşı, insanlığa qarşı cinayət tərkibi daşıyır və BMT-nin İşgəncəyə Qarşı Konvensiyasının 1-ci maddəsi, həmçinin Roma Statutunun 7-ci maddəsi “f” bəndinə əsasən müharibə və sülh dövründə insanlığa qarşı törədilən cinayətlər kateqoriyasına daxildir.

Xüsusilə “Tərtər hadisəsi” zamanı tətbiq edilən bu işgəncələr miqyasına, qəddarlığına və məqsədyönlülüyünə görə dövlət səviyyəsində həyata keçirilmiş planlı və sistemli əməliyyat xarakteri daşıyır. Hadisə tək-tək cinayətlər toplusu deyil, müntəzəm və koordinasiyalı şəkildə törədilmiş dövlət zorakılığı aktıdır. Bu həm də bəşəriyyətə təhlükədir.

**2.2. İctimai nəticələr**: dövlət orqanlarına etimadın itirilməsi, qorxu atmosferi, demokratiyanın boğulması və cəmiyyətdə zorakılığın normallaşması.

**2.3. Siyasi nəticələr:** müxalifətçilərə, jurnalistlərə və hüquq müdafiəçilərinə qarşı işgəncə və psixoloji təzyiq mexanizmi hakimiyyətin siyasi nəzarət alətinə çevrilib.

**2.4. Hüquqi nəticələr:** istintaq və məhkəmə orqanlarının legitimliyi zədələnib, sübutların əksəriyyəti işgəncə altında alınmış etiraflara əsaslanır.

**2.5. Tibbi və psixoloji nəticələr:** qurbanlarda ömürlük fiziki şikəstliklər, post-travmatik stress pozuntusu, depressiya, intihar halları müşahidə olunur.

**2.6. İşgəncələrin intihara aparması və intiharların işgəncə ilə əlaqəsi:** Azərbaycanda işgəncə halları təkcə fiziki və psixoloji əzabla nəticələnmir, həm də çoxsaylı məhbusların, hərbi qulluqçuların və vətəndaşların intiharına səbəb olur. Araşdırmalar göstərir ki, bu intiharların əksəriyyəti işgəncə nəticəsində yaranmış dözülməz fiziki ağrı və mənəvi sarsıntılarla bağlıdır. Bu, işgəncənin dolayısı ilə insan həyatının məhv edilməsinə gətirib çıxardığını sübut edir və onu ölümə aparan cinayət forması kimi xarakterizə edir.

**2.7. İqtisadi nəticələr:** işgəncələrin davam etdiyi ölkələrdə xarici sərmayə azalır, sosial etimad zəifləyir, cəmiyyətin istehsal və əmək potensialı sarsılır.

**2.8. Sosioloji nəticələr:** qorxu, laqeydlik, aqressiya, beyin axını, ailə münasibətlərinin pozulması, cəmiyyətdə mənəvi aşınma və dövlət institutlarının çökməsi müşahidə olunur.

**2.9. İşgəncənin cəzasız qalmasının beynəlxalq təhlükə mənbəyi olması.** İşgəncə cinayətlərinin cəzasız qalması təkcə milli səviyyədə deyil, həm də beynəlxalq müstəvidə təhlükə mənbəyinə çevrilir. Cəzasızlıq mühiti transmilli zorakılıq mədəniyyətini təşviq edir, regionda və qlobal miqyasda yeni zorakılıq dalğalarının yaranmasına şərait yaradır. Bu, beynəlxalq sülh və təhlükəsizliyə real təhdiddir.

**3. Azərbaycan Xalq Parlamentinin mövqeyi**

Azərbaycan Xalq Parlamenti bildirir ki, işgəncə təkcə fərdi cinayət deyil, həm də dövlətin siyasi məsuliyyətini doğuran sistemli cinayətdir.

Tərtər hadisəsi bu cinayətin ən ağır nümunəsidir. Parlament bu hadisəni dövlət səviyyəsində həyata keçirilmiş kütləvi işgəncə və qətliam kimi tanıyır və onun beynəlxalq səviyyədə araşdırılmasını tələb edir.

Azərbaycan Xalq Parlamenti hesab edir ki, Azərbaycanda işgəncənin geniş yayılmasının başlıca səbəbi hüquqi nihilizm, qanunların işlənməməsi, cəzasızlıq və məhkəmə sisteminin müstəqilliyinin olmamasıdır.

Parlament həmçinin bildirir ki, işgəncə cəmiyyətin mənəvi əsaslarını dağıdır, dövlətin hüquqi və əxlaqi legitimliyini məhv edir, insan ləyaqətinə qarşı yönəlmiş ən ağır cinayətdir.

Azərbaycan Xalq Parlamenti bəyan edir ki, işgəncə hazırkı rejimin ayaqda qalmasının əsas alətidir və işgəncə ilə idarə olunan dövlət hüquqi deyil, zor rejimidir; bu rejim nə ədalət, nə sabitlik, nə də gələcək təmin edə bilər.

**4. Tələb və çağırışlar**

Azərbaycan Xalq Parlamenti Azərbaycan Respublikasının hakimiyyət orqanlarından tələb edir:

a) İşgəncə faktlarına dair bütün şikayətlərin dərhal, tam, obyektiv, hərtərəfli və müstəqil araşdırılmasını təmin etsin;
b) “Tərtər hadisəsi” üzrə Beynəlxalq İstintaq Komissiyasının yaradılmasına razılıq versin;
c) İşgəncə qurbanlarına reabilitasiya, hüquqi yardım və kompensasiya təmin etsin;
d) işgəncə qurbanlarına ödənilən kompensasiyaları təqsirkar şəxslərdən reqres qaydasında tələb etsin;
e) Milli Preventiv Mexanizmin fəaliyyətinə ictimai və beynəlxalq nəzarətin artırılmasına şərait yaratsın;
f) Cinayət Məcəlləsində işgəncə tərifini BMT Konvensiyasının 1-ci maddəsi ilə tam uyğunlaşdırmaq üçün islahat aparsın;
g) Polis, prokurorluq və penitensiar sistemdə insan hüquqları üzrə müstəqil monitorinq mexanizmi yaratsın.

Azərbaycan Xalq Parlamenti Birləşmiş Millətlər Təşkilatına, Avropa Şurasına, ATƏTə, Avropa Parlamentinə, Amnesty International, Human Rights Watch, Freedom House və digər beynəlxalq təşkilatlara müraciət edərək:

- Azərbaycanda işgəncə faktlarının beynəlxalq səviyyədə araşdırılmasını;
- Tərtər qətliamı üzrə beynəlxalq tribunalın yaradılmasını;
- Azərbaycan hökumətinə qarşı sanksiya və fərdi məsuliyyət tədbirlərinin tətbiqini zəruri hesab edir;

Azərbaycan cəmiyyətinə, hüquq müdafiəçilərinə və vətəndaşlara müraciətlə Parlament bildirir ki, işgəncələrə qarşı ictimai müqavimət və etiraz mədəniyyəti formalaşdırmaq milli və mənəvi borcdur. Cəmiyyət susduqca, işgəncə normallaşır, etiraz etdikcə isə azadlıq və ədalət bərpa olunur.

**5. Nəticə**

Azərbaycan Xalq Parlamenti bəyan edir ki, işgəncə hazırkı siyasi sistemin davamlılığında mərkəzi rol oynayan vasitəyə çevrilib.

Azərbaycan Xalq Parlamenti təsdiq edir ki, işgəncə insanlığa qarşı cinayətdir və heç bir siyasi məqsəd, milli təhlükəsizlik arqumenti və ya dövlət marağı bu cinayəti əsaslandıra bilməz.

Parlament bu qətnamə ilə işgəncələrin bütün formalarına qarşı dözümsüzlük siyasəti elan edir və beynəlxalq ictimaiyyəti Azərbaycanda insan ləyaqətinin müdafiəsi uğrunda həmrəylik nümayişinə çağırır.

Qətnamə Azərbaycan Xalq Parlamentinin ümumi iclasında qəbul edilib.

**Azərbaycan Xalq Parlamentinin fəaliyyətdə olan Sədri:**

**Xatirə Cəbrayılova**

**Bakı, 11 oktyabr 2025-ci il**